TÜRK DÖVLƏTLƏRİ PARLAMENT ASSAMBLEYASI

BİŞKEK BƏYANNAMƏSİ

TÜRKPA-nın XV Plenar iclası

20 oktyabr 2026-cı il, Bişkek, Qırğız Respublikası

Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) "Süni intellekt və texnoloji tərəqqi dövründə türk dünyasında parlament əməkdaşlığı" mövzusunda XV Plenar iclası Azərbaycan Respublikası Milli Məclisinin, Qazaxıstan Respublikası Qurultayının, Qırğız Respublikası Joqorku Keneşinin, Türkiyə Böyük Millət Məclisinin, eləcə də müşahidəçi qismində Şimali Kipr Türk Cümhuriyyəti (ŞKTC) Qanunvericilik Məclisinin, qonaq qismində Özbəkistan Respublikası Ali Məclisinin üzvlərinin iştirakı ilə 20 oktyabr 2026-cı ildə Qırğız Respublikasının Bişkek şəhərində keçirilmişdir.

Parlament Assambleyası,

- Türk Dövlətləri Parlament Assambleyası haqqında İstanbul Sazişi, "Türk dünyasına baxış-2040" və "2023-2028-ci illər üçün TÜRKPA-nın Strateji Yol Xəritəsi"ndə əksini tapmış məqsəd və prinsipləri *rəhbər tutaraq* və türk dövlətləri arasında əməkdaşlığın və həmrəyliyin gücləndirilməsinə sadiqliyini *bir daha təsdiq edərək*;

- Türk dövlətləri arasında bütün sahələrdə sürətlə inkişaf edən əməkdaşlıqdan və TÜRKPA-nın bu prosesə fəal töhfəsindən məmnunluğunu *ifadə edərək*;

- Beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərinə, xüsusilə də suverenliyə, ərazi bütövlüyünə, beynəlxalq dövlət sərhədlərinin toxunulmazlığına və daxili işlərə müdaxilə etməməyə hörmət və dəstək ilə bağlı norma və prinsiplərə uyğun olaraq, dayanıqlı inkişaf və rifah üçün əvəzolunmaz təməllər kimi türk dünyasında və onun hüdudlarından kənarda sülh, sabitlik və təhlükəsizliyə sadiqliyini *bir daha vurğulayaraq*;

- Ümumi problemlərin həll edilməsində və ortaq maraqların irəlilədilməsində türk dövlətləri arasında ortaq tarixə, dilə, mədəniyyətə, ənənələrə və dəyərlərə əsaslanan birlik və həmrəyliyin əhəmiyyətini *vurğulayaraq*;

- Sürətlə dəyişən beynəlxalq mühitdə dialoqun təşviqi, qarşılıqlı etimadın möhkəmləndirilməsi və xalqlar arasında körpülərin qurulması üçün effektiv mexanizm kimi parlament diplomatiyasının artan əhəmiyyətini *vurğulayaraq*;

- Parlament diplomatiyasının dialoq, məsləhətləşmə, etimad quruculuğu və parlament təcrübəsi mübadiləsi vasitəsilə münaqişələrin qarşısının alınmasına və dinc həllinə, qarşılıqlı anlaşmanın gücləndirilməsinə, regional və beynəlxalq səviyyələrdə sülh və sabitliyin təşviqinə töhfə verə biləcəyini *vurğulayaraq*;

- Demokratik idarəçilik və prinsiplərin, qanunun aliliyinin, effektiv qanunvericiliyin inkişafı və təşviqində, habelə beynəlxalq gündəliyin formalaşmasında türk dövlətlərinin parlamentlərinin və TÜRKPA-nın mühüm rolunu *qeyd edərək*;

- TÜRKPA-ya üzv parlamentlərin və müşahidəçilərin öz müvafiq komitələrində xarici siyasət əməkdaşlığına, beynəlxalq dialoqa və bir-biri arasında qarşılıqlı anlaşmanın inkişafına verdikləri töhfəni qəbul edərək və bu məqsədlərə dəstək olaraq parlamentlərarası qarşılıqlı fəaliyyətin gücləndirilməsinin əhəmiyyətini *vurğulayaraq*;

- Cəmiyyətlərin və iqtisadiyyatların gələcəyinin formalaşdırılmasında süni intellekt və rəqəmsal texnologiyalar daxil olmaqla, elmi və texnoloji tərəqqinin böyük potensialını *qəbul edərək* və onların türk dünyasının xeyrinə məsuliyyətli istifadəsinin təmin edilməsində parlamentlərin iştirakının əhəmiyyətini *vurğulayaraq*;

- Ortaq məqsədlərin təşviqi və parlament diplomatiyasının gücləndirilməsi vasitəsi kimi TÜRKPA-nın xarici əlaqələrinin möhkəmləndirilməsini və onun beynəlxalq tərəfdaşlıq şəbəkəsinin genişləndirilməsini *alqışlayaraq*;

- Qadın parlamentarilərin və gənc parlamentarilərin inklüziv qərar qəbuletmə, parlament diplomatiyası və türk dövlətləri arasında əməkdaşlığın gücləndirilməsinə dəyərli töhfələrini *vurğulayaraq*;

- Parlamentlərarası dialoq və əməkdaşlıq üçün səmərəli platforma və türk institusional əməkdaşlığının qanunvericilik sütunu kimi TÜRKPA-nın artan rolunu *təsdiq edərək*;

- Qazaxıstan Respublikası Qurultayının TÜRKPA-da sədrliyinin uğurla başa çatmasını və 12 iyun 2025-ci ildə Astanada keçirilmiş XIV Plenar iclasdan bəri TÜRKPA çərçivəsində əməkdaşlığın gücləndirilməsində əhəmiyyətli irəliləyişi *vurğulayaraq*;

Parlament Assambleyası aşağıdakıları bəyan edir:

1. Türk dünyasının ortaq baxışının reallaşdırılmasına TÜRKPA-nın töhfəsinin artırılması məqsədilə TÜRKPA çərçivəsində əməkdaşlığı və onun institusional potensialını daha da gücləndirmək qətiyyətini bir daha təsdiqləyir;

2. TÜRKPA Katibliyinin Türk Dövlətləri Təşkilatı (TDT) və əlaqədar qurumlarla əlaqələrin daha da dərinləşdirilməsi üzrə fəaliyyətlərini təqdir edir, türk əməkdaşlığının inkişafında əldə edilmiş nailiyyətləri alqışlayır və çərçivəsində məqsəd və vəzifələrə dəstəyini bir daha vurğulayır;

3. 7 oktyabr 2025-ci ildə Azərbaycanın Qəbələ şəhərində "Regional sülh və təhlükəsizlik" mövzusunda keçirilmiş TDT-nin 12-ci Zirvə Görüşünün nəticələrini yüksək qiymətləndirir və Azərbaycan Respublikasının davam edən sədrliyini və onun TDT-nin prioritetlərinin irəlilədilməsinə töhfəsini təqdir edir;

4. 15 may 2026-cı ildə türk dünyasının mənəvi paytaxtı Türküstanda "Süni intellekt və rəqəmsal inkişaf" mövzusunda keçirilmiş TDT-nin qeyri-rəsmi Zirvə Görüşünün nəticələrini alqışlayır;

5. Qırğız Respublikasında 30 noyabr 2025-ci il növbədənkənar parlament seçkilərinin, Qazaxıstan Respublikasında 15 mart 2026-cı il Konstitusiya referendumunun və Qazaxıstan Respublikasında 23 avqust 2026-cı il parlament seçkilərinin uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırır və bu seçkilərdə və referendumda öz beynəlxalq seçki və referendum müşahidə missiyalarının fəaliyyətlərini müsbət qiymətləndirir; milli qanunvericiliklər və beynəlxalq standartlara uyğun olaraq, seçki qanunvericiliyi, seçki idarəetməsi və seçki müşahidəsi sahələri daxil olmaqla, üzv dövlətlərin müvafiq parlament və seçki qurumları arasında davamlı qabaqcıl təcrübə mübadiləsini təşviq edir;

6. Konstitusiya islahatı və 15 mart 2026-ci ildə ümumxalq referendumu yolu ilə Qazaxıstan Respublikasının yeni birpalatalı Qurultayını yaradan yeni Konstitusiyanın qəbul edilməsi daxil olmaqla, Qazaxıstan Respublikasında islahat proseslərinə dəstəyini ifadə edir və islahatların Qazaxıstanın konstitusiya, siyasi və institusional inkişafında, demokratik idarəçiliyin irəlilədilməsi və insan hüquqlarının qorunmasında əhəmiyyətini qeyd edir;

7. 16 aprel 2026-cı ildə İstanbulda Parlamentlərarası İttifaqın (Pİ) 152-ci Assambleyası çərçivəsində TÜRKPA-nın parlament sədrlərinin birinci qeyri-rəsmi görüşünün keçirilməsini yüksək qiymətləndirir və türk dövlətləri arasında yüksək səviyyəli parlament dialoqu və

əməkdaşlığının inkişaf etdirilməsi üçün dəyərli platforma kimi TÜRKPA-nın Şurasının növbəti iclasları ilə yanaşı, üzv parlamentlərin sədrlərinin iştirakı ilə ildə bir dəfə TÜRKPA-nın Şurasının qeyri-rəsmi iclaslarının keçirilməsinə dəstəyini ifadə edir;

8. Səmərəli parlament diplomatiyası, məsləhətləşmə və etimad quruculuğu vasitəsi kimi əsas beynəlxalq və parlamentlərarası tədbirlər çərçivəsində daxil olmaqla, ümumi maraq kəsb edən məsələlər üzrə TÜRKPA üzv parlamentlərinin sədrləri arasında gələcək məsləhətləşmələri dəstəkləyir;

9. Parlament diplomatiyasının gücləndirilməsi və qarşılıqlı anlaşmanın artırılması məqsədilə TÜRKPA üzv parlamentlərinin müvafiq daimi komitələri arasında ümumi maraq kəsb edən regional və beynəlxalq hadisələr və məsələlər üzrə müntəzəm qarşılıqlı fəaliyyət və fikir mübadiləsini təşviq edir;

10. Üzv parlamentlərin müvafiq mandatlarına və milli mövqelərinə uyğun olaraq, müvafiq hallarda, onların beynəlxalq və regional parlament təşkilatlarındakı nümayəndə heyətləri arasında ümumi maraq doğuran məsələlərlə bağlı davamlı məsləhətləşmələri və məlumat mübadiləsini təşviq edir;

11. Süni intellekt və rəqəmsal texnologiyaların siyasi, hüquqi və təhlükəsizlik mühitinə artan təsirini qeyd edir və türk dövlətləri arasında bu sahədə onların məsuliyyətli, təhlükəsiz və faydalı istifadəsini təşviq edən hüquqi çərçivənin uyğunlaşdırılmasını təşviq edir;

12. Şəffaflığı, hesabatlılığı, məlumatların mühafizəsini, kibertəhlükəsizliyi və insan tərəfindən həyata keçirilən səmərəli nəzarəti təmin etməklə, qanunvericiliyin hazırlanması və təhlili, parlament tədqiqatları, biliklərin idarə olunması, ictimai iştirakçılıq, məlumata çıxış və parlament xidmətlərinin göstərilməsi daxil olmaqla, parlamentin işində süni intellekt və rəqəmsal texnologiyalardan məsuliyyətli istifadəni təşviq edir;

13. Üzv parlamentlər arasında parlament kibertəhlükəsizliyi, rəqəmsal dayanıqlılıq, parlamentin informasiya və kommunikasiya sistemlərinin və məlumatlarının meydana çıxan kibertəhdidlərdən qorunması üzrə əməkdaşlıq və təcrübə mübadiləsini təşviq edir;

14. Mədəniyyət, elm, təhsil və informasiya sahələrində rəqəmsal texnologiyaların və süni intellektin məsuliyyətli, təhlükəsiz və etik istifadəsinin, habelə bu kontekstdə üzv dövlətlər arasında rəqəmsal transformasiya, kibertəhlükəsizlik və fərdi məlumatların qorunması sahələrində əməkdaşlığın vacibliyini vurğulayır;

15. Qanunvericilik və parlament təcrübəsi mübadiləsi aparmaq, TÜRKPA-nın tanınmasını artırmaq və parlament diplomatiyasına töhfə vermək məqsədilə üzv parlamentləri və Katibliyi öz müavfiq mandatları və institusional çərçivələrinə uyğun olaraq, regional və beynəlxalq təşkilatlar və şəbəkələrlə əlaqələri və əməkdaşlığı daha da inkişaf etdirməyə təşviq edir;

16. Beynəlxalq təşkilatlar çərçivəsində türk dövlətlərinin nümayəndə heyətləri arasında koordinasiya və həmrəyliyin gücləndirilməsinin əhəmiyyətini vurğulayır və ATƏT PA-nın 23-cü Payız Sessiyası çərçivəsində 17 noyabr 2025-ci ildə İstanbulda Macarıstan və Özbəkistandan olan nümayəndə heyətlərinin iştirakı ilə TÜRKPA üzv dövlətlərinin ATƏT PA-dakı nümayəndə heyətlərinin birinci koordinasiya iclasının təşkilini alqışlayır;

17. 11 mart 2026-cı ildə TÜRKPA ilə Türk Mədəniyyəti və İrsi Fondu arasında türk dövlətləri arasında mədəni və siyasi əlaqələrin gücləndirilməsi və türk mədəni və siyasi irsinin regional və beynəlxalq səviyyədə təşviq edilməsinə yönəlmiş anlaşma memorandumunun imzalanmasını alqışlayır;

18. Sülhün, tolerantlığın, mədəniyyətlərarası dialoqun və qarşılıqlı anlaşmanın təşviqində əməkdaşlığın gücləndirilməsi istiqamətində bir addım kimi 25 iyun 2026-cı ildə Qlobal Tolerantlıq və Sülh Şurası (QTSŞ) ilə, TÜRKPA və QTSŞ arasında əlaqələrin gələcək inkişafı üçün çərçivə təşkil edən anlaşma memorandumunun imzalanmasını alqışlayır;

19. Model qanunların hazırlanmasında əməkdaşlığı gücləndirir və onların səmərəliliyinin qiymətləndirilməsini, qanunvericilik təcrübəsi və qabaqcıl təcrübələrin mübadiləsini və müvafiq hallarda model qanunlara yenidən baxılmasını və onların yenilənməsini alqışlayır;

20. Katibliyin TÜRKPA-nın hüquqi və institusional çərçivəsinin gücləndirilməsinə və onun səmərəliliyinin, maliyyə dayanıqlılığının və fəaliyyət potensialının artırılmasına yönəlmiş səylərini yüksək qiymətləndirir;

21. TÜRKPA-nın Qadın Parlamentarilər Qrupunun və Gənc Parlamentarilər Qrupunun artan fəaliyyətini təqdir edir və Qrupları əməkdaşlığı fəallaşdırmağa, həmçinin qadınların imkanlarının artırılması, gənclərin iştirakı, dayanıqlı və inklüziv inkişafa nail olunmasına, Qadın Parlamentarilər Qrupunu və Gənc Parlamentarilər Qrupunu müntəzəm mübadilələr, birgə təşəbbüslər, beynəlxalq və regional parlament

fəaliyyətlərində iştirak vasitəsilə parlament diplomatiyasına töhfə verməyə davam etməyə təşviq edir;

22. Türkiyə Böyük Millət Məclisi nəzdində yaradılmış Milli Həmrəylik, Qardaşlıq və Demokratiya Komissiyasının işini təqdir edir və bu təşəbbüsün regionda sülhün, sabitliyin və rifahın möhkəmləndirilməsinə mühüm töhfə verəcəyinə inandığını ifadə edir;

23. 1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultayın davamlı intellektual və tarixi əhəmiyyətini vurğulayır və elmi əməkdaşlığın daha da inkişaf etdirilməsi, habelə türk tarixinin, dillərinin, ədəbiyyatının və mədəni irsinin öyrənilməsinin təşviqi üçün bir fürsət kimi onun yüzilliyinin qeyd olunmasını alqışlayır;

24. 2026-cı ilin 31 avqust – 6 sentyabr tarixlərində Qırğız Respublikasında türk xalqlarının zəngin mədəni irsinin, ənənələrinin və dəyərlərinin, ənənəvi idman növlərinin qorunmasına və beynəlxalq səviyyədə təşviqinə, habelə xalqlar arasında mədəni və humanitar əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli töhfə verən 6-cı Ümumdünya Köçəri Oyunlarına uğurlu ev sahibliyi edilməsini alqışlayır;

25. Üzv dövlətləri birgə tədqiqatlar, akademik mübadilələr və mədəni təşəbbüslər vasitəsilə öz ortaq tarixi, mədəni və mənəvi irsinin öyrənilməsi, qorunması və təşviqində əməkdaşlığı daha da gücləndirməyə çağırır;

26. Türk əməkdaşlıq təşkilatları arasında əməkdaşlıq və koordinasiyanın artırılmasının vacibliyini bir daha təsdiqləyir və 30 yanvar 2026-cı ildə İstanbulda keçirilmiş Türk Əməkdaşlıq Təşkilatlarının Koordinasiya Komitəsinin 6-cı iclasının nəticələrini təqdir edir;

27. Türk əməkdaşlığı çərçivəsində qəbul edilmiş təşəbbüslərə qanunvericilik dəstəyini gücləndirmək məqsədilə türk əməkdaşlıq təşkilatlarının fəaliyyəti və ümumi prioritetləri ilə bağlı parlament mübadilələrinin və məsləhətləşmələrinin inkişaf etdirilməsini təşviq edir;

28. Qazaxıstan Respublikası Qurultayının TÜRKPA-da uğurlu sədrliyini və onun TÜRKPA çərçivəsində əməkdaşlığın irəlilədilməsinə və institusional inkişafa verdiyi dəyərli töhfəni yüksək qiymətləndirir;
29. Qırğız Respublikası Joqorku Keneşinin TÜRKPA-da sədrliyi təhvil almasını alqışlayır və onun sədrliyi ilə TÜRKPA-nın öz məqsədlərinə nail olmağa və türk dövlətləri arasında parlament əməkdaşlığını daha da gücləndirməyə davam edəcəyinə əminliyini ifadə edir;

30. Qırğız Respublikası Joqorku Keneşinin Bişkekdə göstərdiyi səmimi qonaqpərvərliyi və TÜRKPA-nın XV Plenar iclasının yüksək səviyyədə təşkilini yüksək qiymətləndirir;

31. TÜRKPA-nın XVI Plenar iclasının 2027-ci ildə Türkiyə Respublikasında keçirilməsinə qərar verir.